# Dövlət Statistika Komitəsində mətbuat konfransı keçirilmişdir.



2014-cü il fevralın 24-də Dövlət Statistika Komitəsində kütləvi informasiya vasitələri ilə “2013-cü ildə ölkənin sosial-iqtisadi inkişafının və Komitənin fəaliyyətinin yekunları” mövzusuna həsr olunmuş mətbuat konfransı keçirilmişdir. Mətbuat konfransı Dövlət Statistika Komitəsinin Məlumatların yayılması şöbəsinin müdiri Meri Əmirova tərəfindən aparılmışdır. Meri Əmirova 2013-cü ildə ölkənin sosial və iqtisadi sahələrində baş vermiş dəyişikliklər, iqtisadiyyatının inkişafı və sosial sferasında irəliləyişlər haqqında statistik məlumatları təqdim etmiş və media nümayəndələrinin ümumi daxili məhsul, inflyasiya, əhalinin gəlirləri, statistik metodologiyanın yeniləşdirilməsi, kənd təsərrüfatının siyahıyaalınması ilə bağlı suallarına dəqiq və əsaslandırılmış cavablar vermişdir.

Sonda Meri Əmirova 2013-cü ildə Dövlət Statistika Komitəsinin fəaliyyəti barədə məlumatı iştirakçıların nəzərinə çatdırmışdır.




